**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ÇAPAY QADİR oğlu QULİYEV**

# MÜASİR DÖVRDƏ MİLLİ MƏNLİK ŞÜURUNUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

6104.01- Pedaqoji psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

İş Naxçıvan Dövlət Universitetinin Pedaqogika və Psixologiya kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın müxbir üzvü, psixologiya üzrə elmlər doktoru, professor **Bəxtiyar Həmzə oğlu Əliyev** |
| Rəsmi opponentlər: | psixologiya üzrə elmlər doktoru, professor **Ərəstun Təriş oğlu Baxşəliyev** |
| | psixologiya üzrə fəlsəfə doktoru **Ruhəngiz Mehman qızı Qarayeva** |
| Aparıcı təşkilat: | **Azərbaycan Respublikası Təhsil İnstitutunun Psixologiya və yaş fiziologiyası şöbəsi** |

Müdafiə "_____" "_____________" 2018-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci ildə göndərilib.

| | |
|---|---|
| FD. 02.014 Dissertasiya şurasının elmi katibi | psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müxtəlif dövrlərdə olduğu kimi, bu gün də milli mənlik şüurunun inkişaf xüsusiyyətlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edən problemlərdəndir. Çünki elmi-texniki tərəqqidən, cəmiyyətin inkişaf səviyyəsindən asılı olmayaraq kimlik, o cümlədən milli kimlik insanları düşündürən, şəxsiyyətlərarası, qruplararası və şəxsiyyət-qrup münasibətlərini müəyyənləşdirən əsas amillərdən biri olaraq qalmaqdadır. Təsadüfi deyil ki, Amerika alimi Semuel Hantiqton milli kimliyin, milli identikliyin zəifləməsini Amerikanın milli təhlükəsizliyi üçün əsas sosial hadisə hesab edir. O, 2004-cü ildə yazdığı "Biz kimik? Amerika milli identikliyinin çağırışları" əsərində XXI əsrin ən ciddi məsələsi, əsas böhranların səbəbi kimi milli identikliyi, kimliyi xüsusi vurğulayaraq yazır: "11 sentyabr 2001-ci ilin faciəvi hadisələri Amerikaya özünün identikliyini qaytardı. O zamana qədər ki, amerikalılara görə, onların ölkələrini təhlükə təhdid etmir, milli identiklik yüksək olaraq qalır. Əgər təhlükə hissi kütləşirsə, onda digər identikliklər milli identikliyi üstələyirlər". Zənnimizcə, söylənilən fikir 20% əraziləri Ermənistan tərəfindən işğal edilmiş, ermənilər tərəfindən soyqrıma və etnik təmizləmələrə məruz qalmış, bunların nəticəsi olaraq 30 000 vətəndaşı şəhid olmuş Azərbaycana və azərbaycanlılara da şamil edilməlidir. Məhz sovet dövründə Ermənistandan, sovet rejimindən gələ biləcək təhlükə hissinin sovet ideologiyasının təsiri altında kütləşdirilməsi milli identikliyin, milli şüurun zəifləməsinə, digər identikliyin – "sovet vətəndaşı", "sovet xalqı", "kommunizm qurucusu" və bu kimi süni identikliklər üstünlük təşkil edərək tarixin böhranlı dövründə xalqın vəziyyətdən çıxması üçün təşkilatlanmasına, milli həmrəyliyə nail olmasına maneçilik törədən əsas sosial-psixoloji amillərdən biri oldu.

Bu baxımdan müasir dövrdə gənc nəslin milli identikliyinin və milli mənlik şüurunun məqsədyönlü formalaşdırılmasına ciddi ehtiyac duyulur. Problemin psixoloji mahiyyətinin aydınlaşdırılması, milli mənlik şüurunun və mənlik şüuru sərhədlərinin düzgün müəyyənləşdirilməsi olduqca zəruridir. Çünki müasir şəraitdə şagirdlərin, xüsusilə, yeniyetmələrin, eləcə də yeniyetmə-gənclərin mənlik və milli mənlik şüurunun formalaşdırılmasının təşkili bu psixoloji fenomenlərin mahiyyət və mexanizmlərinin qeyd edilən istiqamətdə araşdırılmasını tələb edir.

Hələ ötən əsrin 70-ci illərində Ümummilli lider Heydər Əliyev yeniyetmə və gənclərin mənəvi cəhətdən saflaşdırılmasını, onların milli-mənəvi

ruhda tərbiyə olunmasını tövsiyə edirdi. O, deyirdi ki, gənclərimiz milli ruhda tərbiyə olunmalı, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi, keçmişimizi yaxşı bilməlidirlər. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Ümummilli liderin uzaqgörənliklə dediyi bu sözlərə istinad edərək deməliyik ki, yeniyetmə-gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsində milli-mənəvi dəyərlərimizin rolu danılmazdır. Ona görə ki, milli-mənəvi dəyərlərini, milli adət-ənənələrini sevməyən uşaqların, yeniyetmə və gənclərin milli mənlik şüurunu milli identiklik əsasında formalaşdırmaq çətindir.

Ümummilli lider Heydər Əliyevin sovetlər dövründə milli-mənəvi dəyərlərə yiyələnməyin vacib olduğunu həm dövlət rəhbərlərinə, həm də yeniyetmə və gənclərin tərbiyəsi ilə məşğul olanlara ünvanlaması onu sübut edir ki, bütün dövrlərdə olduğu kimi, müasir dövrdə də yetişən nəslin milli mənlik şüurunun inkişaf etdirilməsinə, formalaşdırılmasına zəruri ehtiyac duyulur. Bu fikrə əsaslanaraq qeyd etmək olar ki, yetişən nəslin milli mənlik şüurunun formalaşdırılması öz aktuallığına və əhəmiyyətinə görə həmişə diqqət mərkəzində olmalıdır. Təsadüfi deyil ki, müstəqillik dövrünün ilk illərindən başlayaraq ömrünün sonuna qədər çıxışlarının demək olar ki, hamısında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasını, gələcək nəsillərə ötürülməsini dönə-dönə tövsiyə edən Ümummilli lider Heydər Əliyev gənc nəslin milli mənlik şüurunun formalaşdırılmasında əvəzsiz rol oynayan milli dəyərlərimizin müasir dövrdəki psixoloji təsir gücünün nə qədər əhəmiyyətli, nə qədər təsirli olmasını bizə bir növ təlqin etmişdir. O, deyirdi: "Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik. Bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır. Azərbaycanın çox zəngin milli mənəvi dəyərləri, ənənələri var. Bu ənənələr, bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün vacibdir və hər bir Azərbaycan vətəndaşının gələcəyi, inkişafı üçün böyük rol oynayır".

Azərbaycan Respublikasının "Təhsil haqqında qanun"un da yetişən nəslin milli mənlik şüurunun formalaşdırılmasının zəruriliyini özündə ehtiva etməsi tədqiq etdiyimiz problemin aktuallılığını göstərir. Qanunda bu xüsusda təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri, o cümlədən hümanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik əsasında, eləcə də bir sıra zəruri mənəvi keyfiyyətlər aşılamaqla yetişən nəslin psixoloji cəhətdən formalaşdırılması da bizim dissertasiyamızın son dərəcə aktual məsələyə həsr edildiyini göstərir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin inkişafı

üzrə Dövlət Strategiyası"nda (2013) əksini tapan beş əsas istiqamətin birincisi səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin yaradılması hesab olunur. Sənəddə orta ümumtəhsil məktəbi şagirdlərinin, o cümlədən yeniyetmə və gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi ilə bağlı müəllimlər, tərbiyəçilər, məktəb psixoloqları, tədqiqatçılar qarşısında mühüm və təxirəsalınmaz vəzifələr qoyulur. Biz də müəllim-tərbiyəçi, psixoloq və tədqiqatçı olaraq məsələnin psixoloji istiqamətdə araşdırılmasını qarşımıza məqsəd qoymuşuq.

**Mövzunun öyrənilməsi vəziyyəti**. Tədqiqat mövzusunun seçilməsinin əsas səbəbi, bir tərəfdən, şəxsiyyətin formalaşmasında milli mənlik şüurunun psixoloji fenomen kimi sistemli və ardıcıl surətdə araşdırılmasının, digər tərəfdən isə milli-mənəvi dəyərlərin, adət-ənənələrin milli mənlik şüurunun inkişafına təsirinin psixoloji mexanizmlərinin öyrənilməsinin əhəmiyyəti ilə bağlıdır. Ona görə də milli mənlik şüurunun psixoloji əsaslarını, mənlik şüuru və milli mənlik şüurunun qarşılıqlı əlaqəsini, milli mənlik şüurunun sosial və etnososial mahiyyətini, emosional mühitin milli mənlik şüurunun formalaşmasına, eyni zamanda, onun şəxsiyyətin sosiallaşmasına təsirinin öyrənilməsini tədqiqat planına daxil etmişik.

Tədqiqat zamanı nəzərə aldıq ki, problemin bəzi tərəflərinə istər pedaqoji baxımdan yanaşan (M.M.Mehdizadə, N.M.Kazımov, H.M.Əhmədov, Y.R.Talıbov, Ə.Ş.Həşimov, B.A.Əhmədov, F.B.Sadiqov, A.N.Abbasov, P.B.Əliyev, H.H.Əhmədov və b.), istərsə də psixoloji cəhətlərinə münasibət bildirən tədqiqatçılar (B.H.Əliyev, R.H.Qədirova, R.İ.Əliyev, M.Ə.Həmzəyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.T.Baxşəliyev, N.R.Rəsulova, R.V.Cabbarov, O.Q.Hüseynova, L.A.Süleymanova, V.R.Əliyeva, S.F.Şabanov, E.A.Hüseynova və b.) milli mənlik şüurunun inkişaf xüsusiyyətlərindən ətraflı bəhs etməmişlər. Onlar bu məsələnin əhəmiyyətini qeyd etmiş, amma onu ayrıca tədqiqat predmeti kimi araşdırmamışlar. Bunları nəzərə alaraq tədqiqatımızı "Müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətləri" mövzusuna həsr etmişik.

**Tədqiqatın obyekti**. Orta ümumtəhsil məktəblərində təhsil alan yeniyetmə və erkən gənclik yaşında olan şagirdlərdə milli mənlik şüuru.

**Tədqiqatın predmeti**. Müasir dövrdə yeniyetmə və gənclərin milli mənlik şüurunun inkişafının psixoloji mexanizm və xüsusiyyətləri.

**Tədqiqatın məqsədi**. Tədqiqatın məqsədi orta ümumtəhsil məktəblərində, ailə və sosial mühitdə sosiallaşma prosesində yeniyetmələrin və erkən gənclik yaşında olan şagirdlərin müasir şəraitdə milli mənlik şüurunun inkişaf xüsusiyyətlərinin psixoloji mexanismlərini öyrənmək və onun məqsədyönlü formalaşdırılmasına dair tövsiyələrin hazırlanmasıdır.

**Tədqiqatın fərziyyəsi.** Mənlik şüuru ilə milli mənlik şüurunun sərhədlərini dəqiq müəyyənləşdirməklə yeniyetmə və erkən gənclik yaşında olan şagirdlərə milli mənlik şüurunun mahiyyəti düzgün aydınlaşdırılarsa onların milli mənlik şüurunun məqsədyönlü inkişafını təmin etmək olar.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsəd və fərziyyəsinə uyğun olaraq həlli zəruri sayılan vəzifələr aşağıdakı şəkildə müəyyənləşdirilmişdir:

1. Fəlsəfi, psixoloji və pedaqoji ədəbiyyatın təhlili əsasında milli mənlik şüurunun tədqiqinin nəzəri istiqamətlərini araşdırmaq, onun inkişaf xüsusiyyətlərini nəzəri və praktik cəhətdən təhlilə cəlb etmək.
2. Milli mənlik şüurunun nəzəri müddəalarını, onun ədəbiyyatdakı qoyuluşunu öyrənib ümumiləşdirmək.
3. Milli mənlik şüurunun mahiyyətini, elmi-psixoloji məzmununu aydınlaşdırmaq.
4. Sosial və etnososial mühitin şəxsiyyətin sosiallaşmasına təsirini milli mənlik şüurunun təşəkkülü baxımından araşdırmaq.
5. Milli mənlik şüurunun şəxsiyyətin sosiallaşmasına təsirinin əsas amillərdən biri olmasını əsaslandırmaq.
6. Milli mənlik şüurunun məqsədyönlü formalaşdırılmasının təşkilinə yönəlmiş tövsiyələrin hazırlanması.

**Tədqiqatın metodologiyası və metodları**. Tədqiqatın metodologiyasını milli mənlik şüuru, şəxsiyyət və onun inkişafı ilə bağlı tədqiqatlardakı fəlsəfi-psixoloji nəzəri müddəaların məcmusu təşkil edir.

Tədqiqat zamanı aşağıdakı metodlardan istifadə olunmuşdur: müşahidə, sorğu, məktəb sənədlərini, şagirdlərin tərcümeyi-halını öyrənmək, eksperiment, test.

Tədqiqat 2005-ci ildən 2016-cı ilə qədər aparılmışdır. Bu illər ərzində Naxçıvan Muxtar Respublikasının 1, 2, 4 və 12 saylı ümumtəhsil məktəblərinin, Babək rayon Nehrəm kənd 1 saylı orta məktəbinin, Şahbuz, Şərur, Culfa və Ordubad rayonlarında yerləşən orta ümumtəhsil məktəblərinin V-IX və X-XI sinif şagirdlərinin milli mənlik şüurunun inkişaf xüsusiyyətlərini öyrənmək məqsədi ilə müşahidələr, müsahibələr aparılmış, anket sorğuları təşkil edilmiş, sorğular həyata keçirilmişdir.

Tədqiqat, əsasən, V-IX siniflərdə oxuyan 12-15 yaşlı və X-XI siniflərdə oxuyan 16-17 yaşlı məktəbliləri əhatə etmişdir.

Tədqiqata cəlb edilən 12-15 yaşlı şagirdlərin sayı 250, 16-17 yaşlı şagirdlərin sayı 220 nəfər olmuşdur.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, tədqiqat işində ilk dəfə olaraq milli mənlik şüurunun pedaqoji-psixoloji əsasları, mənlik şüuru ilə milli mənlik şüurunun sərhədləri, onun əsas xüsusiyyətləri öyrənilərək

müəyyənləşdirilmiş, emosional mühitin şəxsiyyətin milli mənlik şüurunun təşəkkülündəki rolu aydınlaşdırılmış və milli mənlik şüurunun şəxsiyyətin sosiallaşmasına təsirinin imkanları aşkara çıxarılaraq sistemləşdirilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Milli mənlik şüurunun formalaşması prosesinin səmərəli təşkili üçün ona təsir göstərən amillərin qarşılıqlı əlaqəsinin vəhdətinin təmin edilməsi zəruridir.

2. Milli mənlik şüurunun məqsədyönlü formalaşdırılması şəxsiyyətin öz yaradıcılıq potensialını aşkar etməyə, özünügerçəkləşdirməni həyata keçirməyə imkan verir ki, bu da onun inkişafını şərtləndirən əsas psixoloji mexanizmərdən biridir.

3. Emosional mühit şəxsiyyətin milli mənlik şüurunun inkişaf səviyyəsinə və xarakterinə əhəmiyyətli dərəcədə təsir göstərir ki, bu da adekvat emosional mühitin yaradılmasını tələb edir. Eksperimental tədqiqatın nəticələri əsasında müəyyən edilmişdir ki, düzgün təşkil edilmiş emosional mühit şagirdlərin milli mənlik şüurunun inkişafının səviyyəsini artırır.

4. Milli mənlik şüurunun formalaşdırılması şəxsiyyətin sosiallaşmasını təmin edən əsas vasitələrdəndir. Ona görə də şəxsiyyətin sosiallaşmasının psixoloji modelinə əsas elementlərdən biri kimi milli mənlik şüurunun formalaşdırılması daxil edilməli və yaş xüsusiyyətləri nəzərə alınmalıdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatda milli mənlik şüurunun müasir şəraitdə inkişaf xüsusiyyətlərinin nəzəri əsasları öyrənilərək sistemləşdirilmiş, onun inkişafı ilə bağlı bəzi nəzəri məsələlərə aydınlıq gətirilmiş və şəxsiyyətin sosializasiyasının psixoloji modelinin yeni elementləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatın nəticələri orta ümumtəhsil məktəblərində çalışan fənn müəllimlərinə və məktəb psixoloqlarına, demoqrafiya və sosial mühitlə bağlı tədqiqat aparan mütəxəssislərə müasir şəraitdə yeniyetmə və gənclərin milli mənlik şüurunun öyrənilməsi və formalaşdırılmasında praktik köməklik göstərəcəkdir.

**Tədqiqatın nəticələrinin aprobasiyası**. Tədqiqatın nəticələri Naxçıvan Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasında keçirilən elmi seminarlarda məruzə edilmiş, dissertasiya işinin əsas müddəaları, nəticə və tövsiyələri respublikada və xarici ölkələrdə dərc edilən müxtəlif elmi jurnallarda çap edilmiş məqalələrdə, respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslarda edilmiş elmi məruzələrin tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi üç fəsildən, nəticələr, təkliflər və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində onun aktuallığı, mövzunun öyrənilməsi vəziyyəti, obyekti, predmeti, məqsədi, fərziyyəsi, vəzifələri, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti, metodologiyası və metodları, müdafiəyə təqdim olunan müddəalar, tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Mənlik şüurunun mahiyyəti, məzmunu və tədqiqinin nəzəri əsasları"** adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir.

Yarımfəsillərdə müvafiq olaraq mənlik şüurunun mahiyyəti, inkişaf xüsusiyyətləri və əsas tədqiqat istiqamətləri öz əksini tapmışdır. **"Mənlik şüurunun mahiyyəti"** adlanan birinci yarımfəsldə mənlik şüurunun mahiyyəti aydınlaşdırılarkən göstərilir ki, "mənlik şüuru" fərdin, yeniyetmə-gəncin, bütövlükdə götürüldükdə isə insanın özünüdərketmə prosesini ifadə edən anlayışdır. Yarımfəsildə qeyd olunur ki, məktəbli gənclərin mənlik şüurunun inkişaf etdirilməsinə bəsit hislərlə yanaşmaq olmaz. Milli qüruru, iftixarı, milli qeyrəti, dəyanəti, milli əqidə saflığını aşılamadan məktəbli şəxsiyyətinin mənlik şüurunun formalaşdırılmasını tam təmin etmək mümkün deyil. Mənlik şüuru milli əsasda formalaşmayan yeniyetmə-gənclərin milli mənlik şüurunun formalaşması barədə də təmtaraqlı danışmaq isə əbəsdir. Ona görə də məktəbli gənclərlə işləyərkən sözlə işin, yəni danışıqla əməlin vəhdəti ilə bağlı psixoloji yanaşmalara daha çox yer verilməlidir. Yarımfəsildə o da vurğulanır ki, bəzən milli azadlıqla, milli suverenliklə bağlı şüarları səsləndirən trafaretləri hazırlayanlar vətənpərvərliklə bağlı hazırladıqları həmin sözləri milli mənlik şüurunun formalaşmasının məhsulu hesab edirlər. Belə bir qənaətin əsassız olduğunu və səhv nəticələrə gətirib çıxara biləcəyini qeyd edərək, göstərilir ki, milli mənlik şüuru tərbiyə olunaraq formalaşmış yeniyetmə-gənclərdə əqidə bütövlüyü ilə yanaşı, milli özünütənqid, sözlə işin, əməlin tam şəkildə vəhdəti onların mənliyində öz əksini aydın şəkildə tapmalıdır. Milli qeyrəti, milli əqidə saflığı olmayanlarda isə milli mənlik hisləri də baş qaldıra bilməz.

Məhz ona görə yarımfəsildə milli mənlik şüurunun inkişafına, hətta formalaşmasına təsir edən ilkin şərtlər barədə də ətraflı söhbət açılır. Göstərilir ki, mənlik şüuru və milli mənlik şüurunun formalaşmasında ilkin təbii şərt kimi tələbat və maraqların nəzərə alınması olduqca zəruridir. Milli mənlik şüurunun bünövrəsini təşkil edən idrak tələbatlarının obyekti olan

maraqların əsasında yaranması onun inkişafının təməlini təşkil edir. Eyni zamanda, yeniyetmə və gənclərin milli mənlik şüurunun inkişafı müvafiq mənəvi sosial-psixoloji tələbatlardan çox asılıdır. Bu asılılığı təmin edən amillərdən biri də ağıldır. Yetişən nəslin təlim-tərbiyəsi zamanı onların milli mənlik şüurunun meyarı olan ağılın pedaqoji əsasları ilə yanaşı, psixoloji əsaslarını da dərindən öyrənmək bu sahədə çalışanların hər birinin borcudur. Bu məsələnin psixoloji əsaslarının öyrənilməsi zamanı milli xüsusiyyətlərin, millətin həyati mənafeyini, milli adət-ənənələri, milli iftixar hislərinin qorunmasını, milli ləyaqətə dərin hörmət bəsləməyi də nəzərə almaq vacibdir.

Yarımfəsil yekunlaşdırılaraq belə bir qənaətə gəlinir:

-milli mənlik şüuru bir anlayış olaraq "milli", "mənlik" və "şüur" sözlərinin cəmindən yaranan və bir fərdin, yeniyetmə-gəncin, bütövlükdə götürüldükdə insanın özünüdərketmə prosesini özündə ifadə edən anlayışdır;

-milli mənlik şüurunun bünövrəsini təşkil edən idrak tələbatlarının obyekti olan maraqların əsasında yaranması onun inkişafının təməlini təşkil edir;

-milli mənlik şüurunun məhsullarından olan milli-mənəvi keyfiyyətlər yetişən nəslin milli mənlik şüurunun formalaşmasında bənzərsiz rola malik olur;

-yeniyetmə-gənclərin hərtərəfli inkişaf etmiş şəxsiyyətlər kimi yetişməsində əsas rol oynayan maraqların motivlərinə uyğun olaraq milli mənlik şüuru formalaşmış olur;

-yeniyetmə-gənclərin bir şəxsiyyət kimi inkişafında, yəni şəxsiyyətyönümlülük səviyyəsinin yüksəlməsində əsas rol oynayan səmərəli fəaliyyətinin, əqidə saflığının, milli dəyərlərə saf məhəbbətinin düzgün motivləşdirilməsi hesabına milli mənlik şüuru inkişaf edir;

-milli mənlik şüurunun meyarı olan ağılın formalaşmasına təsir edən psixoloji modelinin yaradılması yeniyetmə-gənclərin şəxsiyyətyönümlülük səviyyəsini yüksəltmiş olur.

**"Mənlik şüurunun inkişaf xüsusiyyətləri"** adlanan birinci fəslin ikinci yarımfəslində mənlik şüuru və milli mənlik şüurunun yaş dinamikasından asılılığı araşdırılmışdır. Yarımfəsildə qeyd olunur ki, mənlik şüurunun inkişaf xüsusiyyətlərini şərtləndirən bir sıra əsas amillər vardır. Bu amillər içərisində şəxsiyyətin yaş xüsusiyyətləri əsas rol oynayır. İstər mənlik şüuru, istərsə də milli mənlik şüurunun inkişafı, əsasən, yeniyetməlik və gənclik yaş dövründə baş verdiyi üçün tədqiqat planında yeniyetməlik və gənclik yaşının əsas iki dövrü, yəni 12-15 yaş ( V-IX sinif şagirdləri) və 16-17 yaş ( yəni X-XI sinif şagirdləri) daxil edilmişdir.

Eyni zamanda pedaqoji prosesdə mənlik şüuru və milli mənlik şüurunun formalaşmasında təfəkkürün fikri prosesləri olan müqayisə, ümumiləşdirmə, təhlil, tərkib, konkretləşdirmə kimi proseslərin əhəmiyyətliliyi geniş şəkildə nəzərə alınmalıdır. İstər fənn müəllimlərnə, istər dərsdən və məktəbdənkənar tədbirlərə rəhbərlik edənlərə, istərsə də məktəb psixoloqlarına yeniyetmələrin milli mənlik şüurunun inkişafını stimullaşdırmağa xidmət edən müqayisə materiallarını seçərkən müqayisənin həm pedaqoji, həm də psixoloji əsaslarına istinad etmələri tövsiyə olunur. Ona görə də yeniyetmələrin mənlik şüurunun inkişafını təmin edən elə didaktik materiallar seçmək lazımdır ki, həmin materialların pedaqoji-psixoloji təsir gücü onların şüurunda davamlı olaraq kök sala bilsin. Dissertasiyanın bu yarımfəslində o da virğulanır ki, müəllim şagirdləri sağlam müqayisələr aparmağa, müqayisə aparatının istək mexanizmi olan tutuşdurmanı, qarşılaşdırmanı, ümumiləşdirməni, mücərrədləşdirməni və konkretləşdirməni şüurlu surətdə dərk etməyə alışdırmağın elmi, pedaqoji-psixoloji şərtlərini düzgün müəyyənləşdirməlidir. Bu zaman şərtlərin hər birinə əməl edən müəllim milli qəhrəmanlara məxsus mənəvi keyfiyyətləri məktəblilərə asanlıqla aşılıya bilir. Belə mənəvi keyfiyyətlər onların təfəkküründə şüurlu idarəetmə mexanizmi kimi kök salmağa başlayır. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsindən, bu salnamənin ağıllı, hünərli, qeyrətli, ismətli, yurdsevər, torpağını yad nəzərlərdən qorumağı bacaran, vətən uğrunda şəhid olan qəhrəman övladlara məxsus belə mənəvi keyfiyyətləri əxz edən məktəblilərdə mətin iradə təzahür edir. Məktəblilərin davranışları onların mətin iradəsində təzahür edərək şüurlu özünüidarə və özünüdərk mexanizmini yaradır.

Birinci fəslin üçüncü yarımfəsli **"Mənlik şüurunun tədqiqat istiqamətləri"** adlanır. Bu yarımfəsildə göstərilir ki, milli mənlik şüuru bir problem olaraq bütün ictimai elmlər sahəsində çalışan mütəxəssislər tərəfindən araşdırılır, öyrənilir və tədqiq olunur. Fəlsəfə, sosiologiya, pedaqogika və psixologiya elmləri tərəfindən isə milli mənlik şüuru problemləri məqsədəyönlü, planlı və mütəşəkkil olaraq mütəmadi öyrənilir. Bu elmlər içərisində milli mənlik şüurunu bir problem olaraq bütün dövrlərdə öyrənən psixologiya elmidir.

Yarımfəsildə pedaqoji, psixoloji tədqiqatların müqayisəli təhlilinə yer ayrılaraq göstərilir ki, pedaqoji baxımdan yanaşan alimlər (M.M.Mehdizadə, N.M.Kazımov, Y.R.Talıbov, Ə.Ə.Nağıyev, F.B.Sadiqov, A.N.Abbasov, P.B.Əliyev, H.H.Əhmədov və b.), istərsə psixoloji cəhətlərinə münasibət bildirən alimlər (B.H.Əliyev, R.H.Qədirova, R.İ.Əliyev, M.Ə.Həmzəyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, N.R.Rəsulova, R.V.Cabbarov, M.V.Vəliyev, Z.A.Veysova, E.M.İsmayılova, O.Q.Hüseynova, L.A.Süleymanova, V.R.Əliyeva, S.F.Şabanov, E.A.Hüseynova və b.)

tədqiqat işlərində yeniyetmə və gənclərin özünüdərk, milli özünüdərk, milli identiklik, mənlik şüurunun formalaşması, mən obrazı və s. bu kimi psixoloji xüsusiyyətlərin inkişafı və təşəkkülü məsələlərinə toxunmuş, milli mənlik şüurunun əhəmiyyətini qeyd etmiş, amma onu ayrıca tədqiqat predmeti kimi fundamental şəkildə təhlilə cəlb etməmiş, milli mənlik şüurunun inkişaf xüsusiyyətlərindən ətraflı bəhs etməmişlər.

Yarımfəsildə göstərilir ki, istər klassik örnəklərdə, istər xarici ölkələrin psixoloqlarının elmi yaradıcılığında, istərsə də Azərbaycan filoloqlarının, sosioloqlarının, pedaqoq və psixoloqlarının əsərlərində yetişən nəslin milli mənlik şüurunun inkişafı ilə bağlı çoxsaylı tədqiqatlar, o cümlədən məqalələr, kitabçalar, kitablar, monoqrafiyalar elmi məqalələr mövcuddur. Bu, onu göstərir ki, haqqında danışılan problem həmişə vacib olması ilə bağlı diqqəti cəlb etdiyi kimi, bu gün də aktualdır. Nəzərə almaq lazımdır ki, istər xarici ölkələrin psixoloqlarının, istərsə də ölkəmizin psixoloq alimlərinin yetişən nəslin milli-mənlik şüurunun inkişafının öyrənilməsi ilə bağlı apardığı tədqiqatlar, milli xarakteri, etnik-milli səciyyəsi ilə biri-birindən köklü surətdə fərqlənir. Ona görə ki, şəxsiyyətin təşəkkülündə olduğu kimi, onun milli mənlik şüurunun inkişaf etdirilməsi bir sıra sosial, etnik amillərin xarakterindən və təsir xüsusiyyətlərindən asılı olur. Ona görə yeniyetmə və ilkin gənclik dövrünü yaşayan məktəblilərin milli mənlik şüurunun inkişafını şərtləndirən bütün cəhətləri, bütün xüsusiyyətləri nəzərə almaqla haqqında danışılan məsələnin müvəffəqiyyətli həllinə kömək etmiş olur:

- Ona görə də milli mənlik şüurunu inkişaf etdirən belə ən mühüm şərtlərə, tələblərə, məsləhət və tövsiyələrə əməl etməklə məktəblilərin özünüidarəsini, özünüqiymətləndirməsini və özünüdərkini inkişaf etdirmək mümkündür. Yetişən nəslin nümayəndələrinin "mənlik şüurunda" şüurun bütün xüsusiyyətləri onların özlərinin "mən"i vasitəsilə ifadə olunur. Belə bir şəraitdə onların şəxsiyyətyönümlülük səviyyəsi yüksəlmiş olur:
- Milli mənlik şüurunun inkişafını şərtləndirən cəhətlərin məqsədyönlü və mütəşəkkil olaraq gözlənilməsi, onlara istinad olunmasının nəzərə alınması mənlik şüurunun bimodal inkişafı üçün xüsusi şəraitin yaradılmasını təmin etmiş olur. Bu, o deməkdir ki, mənlik şüurunun bimodal xarakteri, eyni zamanda, həm öz "mən"inə, yəni subyektə, həm də "qeyri-mən"ə, yəni obyektə məxsus olan bütün əlamətləri, keyfiyyətləri və psixoloji xüsusiyyətləri özündə əks etdirmiş olacaqdır.
- Bütün bunların nəticəsində mənlik şüurunun struktur vahidləri olan özünüdərketmə, özünüqiymətləndirmə, özünütəlqin, özünəhörmət kimi adekvat qiymətləndirmə meyilləri güclənəcəkdir.

Dissertasiyanın ikinci fəsli **"Milli mənlik şüurunun öyrənilməsi**

**istiqamətləri"** adlanır. Bu fəsil 3 yarımfəsli özündə birləşdirir.

İkinci fəslin **"Milli mənlik şüuru və mənlik şüuru"** adlanan ilk yarımfəsilində "mənlik şüuru", "milli mənlik şüuru", "milli şüur", "azərbaycançılıq ideyası" anlayışlarının mahiyyəti aydınlaşdırılmış və onlar müqayisəli şəkildə təqdim edilmişdir. Yarımfəsildə göstərilir ki, insan şüurunun strukturuna daxil olan "mənlik şüuru" şüurun mühüm xarakterik xüsusiyyətlərindən yalnız birini təşkil edir. Yəni "Mənlik şüurunun" bütün xüsusiyyətləri bir "mən" vasitəsilə təcəssümünü tapır və şəxsiyyətin formalaşmasını təmin etmiş olur. Təsadüfi deyil ki, psixoloji ədəbiyyatda bu termin iki sözdən – "mənlik " və "şüur" sözlərindən ibarətdir. Dəfələrlə qeyd etdiyimiz kimi, bu termin daxilində "şüur" sözünün evristik mənası vardır. Bu, o deməkdir ki, "mənlik şüuru", əsasən, şüurun strukturuna daxildir. Lakin şüurun digər struktur xüsusiyyətlərindən fərqli olaraq onun özünəməxsus cəhətləri də vardır. Bu cəhətlər "mənlik" sözündə ifadəsini tapır. "Mənlik şüurunda" şüurun bütün xüsusiyyətləri insanın "öz məni" vasitəsilə ifadə olunur və şəxsiyyət hadisəsinə çevrilən mənlik şüuru bimodal xarakter daşımaqla eyni vaxtda həm "mən"ə, həm də "qeyri-mən"ə mənsub olan cəhətləri özündə səciyyələndirir. Məhz ona görə də yeniyetmə-gənclərə azərbaycançılıq ideyası ilə bağlı məlumatların verilməsi, ilk növbədə, onların özlərini şəxsiyyət kimi tanımağa başlaması, dərk etməsi prosesi ilə nəticələnir. Nəticədə həmin prosesdə iştirak edən yeniyetmənin özünün tələbatlarına, qabiliyyətlərinə, qabiliyyətlərindən yaranan istedad tərəflərinə, mədəni davranışlarına, habelə fəaliyyət motivlərinə olan şəxsi münasibətlərində nəzərə çarpacaq dərəcədə yüksəliş özünü göstərir.

Öz "mən"ini "qeyri-mən"dən ayıran, özünün fiziki, psixi və əxlaqi-mənəvi keyfiyyətlərini obyektiv qiymətləndirməyi bacaran yeniyetmələr və ilk gənclik dövrünü yaşayan məktəblilər azərbaycançılıq ideyasını bütövlükdə dərk edərək formalaşırlar. Belə formalaşma onların milli mənlik şüurunun formalaşması kimi dəyərləndirilir.

Yarımfəsildə vurğulanır ki, respublikamızda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə yetişən nəslin milli mənlik şüurunun formalaşdırılması ideyası təlim-tərbiyə müəssisələrində çalışan mütəxəssislər qarşısında mühüm vəzifələr qoyur. Yetişən nəslin milli mənlik şüurunun inkişaf etdirilməsinə zəmin yaradan amillərin içərisində isə milli adət-ənənələr mühüm əhəmiyyət kəsb edir. Bu ənənələr içərisində azərbaycançılıq ideyasının yaradılması ənənəsi bütün əsrlər üçün aktuallıq kəsb edən ənənələrdən hesab olunur. Orta ümumtəhsil məktəblərində yeniyetmə və gənclərə azərbaycançılıq ideyasının aşılanması, hər şeydən əvvəl, onların milli mənlik şüurunun inkişafına zəmin yaratmış olur. Yarımfəsildə bu barədə ümumiləşdirmə aparılarkən qeyd olunur ki, yeniyetmələrin milli

mənlik şüurunun inkişafına zəmin yaradan azərbaycançılıq ideyasının üzə çıxarılmasının özü də bir sıra zəruri amillərdən asılıdır. Hansı ki, bu amillərdən biri də psixoloji amillər hesab olunur. Psixoloji ədəbiyyatda bu məsələyə səthi yanaşıldığını nəzərə alaraq biz yeniyetmələrin milli mənlik şüurunda azərbaycançılıq ideyasının yaradılması ənənəsi ilə bağlı bir sıra elmi müddəaların irəli sürülməsini məqsədəmüvafiq hesab edirik. Irəli sürəcəyimiz elmi müddəaların psixoloji əsaslarına dair bir sıra fikirlər söyləməklə orta ümumtəhsil məktəblərində çalışan məktəb rəhbərlərinə, xüsusilə məktəb psixoloqlarına bir sıra tövsiyə və elmi məsləhətlər verməyi məqsədəuyğun hesab etdik.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli **"Emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündə rolu"** adlanır. Bu yarımfəsildə göstərilir ki, insan bir şəxsiyyət kimi özü ilə inikas olunan mövcud obyektiv münasibətləri beynində əks etdirir. Ətraf aləmin inikası zamanı insanın bir şəxsiyyət olaraq inikas edilənlərə özünəməxsus münasibəti onun hissi və emosional aləmini təşkil edir. Məlumdur ki, emosional mühit çox əhəmiyyətlidir və emosional mühit şəraitində öyrədilən, təhlil edilən, istiqamətləndirilən məsələlər şagirdlərin hafizəsində daha yaxşı həkk olunur.

Yarımfəsil yekunlaşdırılarkən qeyd edilir ki, emosional mühitdə məktəblilərə aşılanan əxlaqi normaların, şəxsi məna kəsb etməsi şagirdlərin nikbin ruhda tərbiyyəsi üçün böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, şagirdlərin nikbin ruhda tərbiyələndirilməsi onların digər əxlaqi-mənəvi keyfiyyətlərinin də inkişaf etdirilməsi işini asanlaşdırır. Beləliklə, nikbinliklə həyata hazırlanan şagirdlərə qeyd olunan əxlaqi-mənəvi keyfiyyətlərin aşılanması onların milli mənlik şüurunun da formalaşmasını təmin etmiş olur. Milli mənlik şüurunun formalaşdırılması üçün zəruri olan emosional mühitin yaradılmasında nikbinlik xüsusi yer tutur. Bu sözün lüğəti mənasına diqqət etsək görərik ki, nikbinlik bütün psixoloji ədəbiyyatda şən, həyatdan razı, ümid etməyi xoşlayan, xoş gələcəyə ümidlə baxan, gələcəyi yaxşı görən, obyektiv qiymətləndirən, bədbinliyə uymayan, yəni optimist baxışlı, həyatda yalnız yaxşı cəhətləri görmək qabiliyyətinə malik insanlar kimi şərh edilir. Məktəblilərin də nikbin əhval-ruhiyyəsini təmin edən emosional mühitin faydası böyükdür.

**"Şəxsiyyətin sosiallaşmasına milli mənlik şüurunun təsirinin psixoloji xüsusiyyətləri"** adlanan üçüncü yarımfəsildə qeyd edilir ki, sosiallaşma ikitərəfli proses kimi cəmiyyətdə toplanmış sosial-tarixi təcrübənin böyüməkdə olan nəsilə ötürülməsini təmin edir. Böyüklərlə qarşılıqlı ünsiyyət prosesində toplanmış təcrübə uşaqlar tərəfindən əvvəlcə interiorizasiya edilir (mənimsənilir), sonra isə onların davranışında təzahür edir.

Burada interiorizasiya, yəni göstərilən milli-mənəvi dəyərlərin şüurlu mənimsənilməsi, şüura hopdurulması, mənlik şüurunun əsas elementlərinə çevrilməsi başa düşülür.

Yarımfəsili ümumiləşdirərək aşağıdakı nəticələrə gəlinir:

-Yetişən nəslin sosiallaşmasında onların milli mənlik şüurunun əhəmiyyətli rolu var.

-Dərsdən və məktəbdənkənar müəssisələrdə, kütləvi tədbirlərdə, teatr müsabiqələrində, yarışlarda, oyunlarda gənc nəslin milli mənlik şüurunun inkişafına diqqətin artırılması onların sosiallaşmasını stimullaşdırır.

-Yetişən nəslin estetik şüurunun inkişaf etdirilməsi onların mənlik şüurunun formalaşması əsaslarından birini təşkil edir. Ona görə də onların təbiətdə, cəmiyyətdə, incəsənətdə olan gözəlliklərin duyulmasına, qavranılmasına və qiymətləndirilməsinə istiqamətləndirilməsi milli mənlik şüurunun inkişaf etdirilməsi üçün əsas şərtlərdən hesab olunur.

Dissertasiyanın üçüncü fəsli belə adlanır: "**Müasir dövrdə milli mənlik şüurunun inkişafına təsir göstərən psixoloji xüsusiyyətlərin tədqiqi".** Bu fəslin **"Tədqiqatın təşkili və keçirilməsi"** adlanan birinci yarımfəslində göstərilir ki, yeniyetmələr üçün emosional mühitin ünvanını müəyyənləşdirməklə onlara psixoloji təsiri məqsədyönlü, planlı və ardıcıl olaraq təşkil etmək üçün eksperimental tədqiqat həyata keçirilməlidir. Ona görə də tədqiqatın fərziyyəsinə və qarşıya qoyulmuş vəzifələrdən çıxış edərək keçirilmiş sorğu əsasında ilk növbədə VIII-IX və X-XI sinif şagirdlərindən ibarət eksperimental və kontrol qruplar müəyyənləşdirildi.

Naxçıvan Muxtar Respublikasının orta ümumtəhsil məktəblərinin VIIIa, IXa, Xa və XIa siniflərində apardığımız psixoloji müşahidələrin nəticələrinə əsasən 2014-cü ilin birinci yarım ili ərzində şagirdlərə müvafiq suallarla müraciət edərkən qaneedici cavablar almadıq. Sorğu zamanı şagirdlərə verilən "Mənlik nədir", "Milli mənlik nədir", "Mənlik şüuru nədir", "Milli mənlik şüuru nədir", "Özünüqiymətləndirmə deyəndə nə başa düşülür", "Milli mənəvi dəyərlərə hörmətlə yanaşma deyəndə nə başa düşülür" suallarına verilən cavabların təhlili göstərdi ki, əksər hallarda onlarda həmin anlayışlar haqqında adekvat təsəvvür yoxdur, təsəvvürlər stereotip xarakter daşıyır və real hadisəni inikas etdirmir. Buradan belə bir qənaət hasil oldu:

VIII-IX sinif şagirdlərinin milli mənlik və milli mənlik şüuru ilə bağlı təsəvvürləri bəsit olduğu üçün onlarla bu barədə məqsədyönlü, planlı, ardıcıl işlərin aparılması məqsədəmüvafiqdir. Bu məqsədlə eksperimental tədqiqat mərhələsində aparılacaq işin məzmununu aşağıdakı şəkildə müəyyənləşdirdik:

- VIII-IX sinif şagirdləri üçün milli mıənlik şüuru adı altında

“dəyirmi masa”, “şagird konfransları”, “maraq kursları” kimi tədris kursları təşkil edilsin;

- X-XI sinif şagirdləri üçün “test tapşırıqları” adlı tədbir təşkil edilsin;
- yeniyetmə şagirdlər üçün mənəvi dəyərlər, milli mənəvi dəyərlərlə bağlı mövzular ətrafında söhbətlər təşkil edilsin;
- “Mən” konsepsiyası mövzusunda test tapşırıqları üzərində iş aparılsın;
- Özünüqiymətləndirmə testləri hazırlanıb tətbiq edilsin;

Öyrədici materialların hazırlanaraq tətbiq olunması işi həyata keçirildikdən sonra eksperimental tədqiqat aparıldı və əldə edilən nəticələr ayrıca yarımfəsildə kəmiyyət və keyfiyyət baxımından təhlil edilərək ümumiləşdirildi. “**Alınmış nəticələrin təhlili”** adlanan bu yarımfəslidə yeniyetmə-gənclərin milli mənlik şüurunun inkişafına öyrədilən materialların təsirinin səviyyəsi araşdırıldı. Təşkil olunan maraq kurslarında aparılan, müasir dövrü səciyyələndirən söhbətlərin milli mənlik şüurunun inkişafına təsirinin imkanları yoxlanıldı.

Maraq kurslarında yeniyetməlik və ilkin gənclik dövrünü keçirən şagirdlər üçün təşkil etdiyimiz əxlaqi söhbətlərin faydalı olduğu özünü göstərdi. Belə ki, VIII$^a$ və IX$^a$ sinif şagirdləri üçün hazırladığımız eksperiment işlərin nəticələrini yoxladıqda da belə qənaət hasil oldu. Məlum oldu ki, maraq kurslarında təmsil olunan VIII$^a$ və IX$^a$ sinif şagirdlərinin hər birinə ayrı-ayrılıqda aşılanan mənəvi keyfiyyətlər onların mənlik şüurunun formalaşmasını təmin etmişdir. Eyni işləri onuncu və onbirinci siniflərin eksperimental qruplarında (X$^a$, XI$^a$) həyata keçirdik. Alınan nəticələr irəli sürdüyümüz fərziyyənin doğruluğuna dəlalət edirdi.

Aparılan sorğuların (yeniyetmə (VIII$^a$, IX$^a$), və ilk gənclik dövrlərini (X$^a$, XI$^a$) özündə əks etdirən eksperimental qruplar) ayrı-ayrılıqda nəticələrini müqayisəli təhlil etdikdən sonra məlum oldu ki, müəyyənedici, yəni ekperimental işin birinci mərhələsində əldə edilmiş nəticələrlə eksperimental işin ikinci mərhələsində görülən məqsədyönlü və planlı işin nəticələri ciddi şəkildə fərqlənirlər. Müqayisə zamanı məlum oldu ki, ekperimental işin ikinci mərhələsində tədqiqatın işçi fərziyyəsinə uyğun olaraq aparılan məqsədyölü işin nəticəsi uğurlu olmuşdur. Birinci mərhələdəki vəziyyətdən fərqli olaraq, məqsədyönlü, planlı işlərin həyata keçrilməsindən sonra şagirdlərin mənimsədikləri anlayışların məzmununda keyfiyyət dəyişiklikləri baş vermiş və onlar ifadə etdikləri hadisəni daha düzgün inikas etdirirlər.

Ekperimentin ikinci mərhələsində VIII sinif şagirdləri ilə aparılan sorğunun nəticələrinin təhlili əsasında üç səviyyə müəyyən edilmişdir (Cədvəl 3.1).

**VIII sinif şagirdlərinin anket sorğularının cavabları**

**Cədvəl 3.1**

| S/n | **Sualların sırası** | **Şagird-lərin sayı** | **Cavabların səviyyəsi** | | |
|---|---|---|---|---|---|
| | | | **Aşağı** | **Orta** | **Yuxarı** |
| 1. | Millət deyəndə nə başa düşülür? | 18 | 0 | 8 | 10 |
| 2. | "Millət" və "milli" sözlərinin mənasını aydınlaşdıra bilərsiniz? | 18 | 0 | 7 | 11 |
| 3. | "Milli mənlik" və "milli şüur" anlayışlarının məna çalarlarını aydınlaşdırın. | 18 | 0 | 8 | 10 |
| 4. | Milli mənlik şüuru anlayışının mənasını şərh edin. | 18 | 0 | 9 | 9 |
| 5. | Milli-mənəvi dəyərlər hansılardır? | 18 | 0 | 9 | 9 |
| 6. | Milli "mən"in əxlaqi-mənəvi keyfiyyətləri hansılardır? | 18 | 0 | 8 | 10 |
| 7. | Vətənpərvərliyə, yurdsevərliyə, torpağı yad nəzərlərdən qorumağa dair hansı foklor materiallarını sadalaya bilərsiniz? | 18 | 0 | 7 | 11 |
| 8. | Sadaladığımız folklor materiallarını milli-mənəvi dəyərlər kimi izah edə bilərsinizmi? | 18 | 0 | 8 | 10 |
| 9. | Hazırkı şəraitdə milli-mənəvi dəyərlərin mənlik şüurunun inkişafına təsir imkanlarını şərh edin. | 18 | 0 | 8 | 10 |
| 10. | Müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətləri barədə nə deyə bilərsiniz? | 18 | 0 | 9 | 9 |
| 11. | Milli mənlik şüuruna malik olan insan (məktəbli) hansı keyfiyyətləri ilə seçilməlidir? | 18 | 0 | 9 | 9 |

Cədvəldə göründüyü kimi, eksperimental işin ikinci mərhələsində həyata keçirilən məqsədyönlü və planlı işlərin mütəmadi olaraq həyata keçirilməsindən sonra yeniyetmələrin milli mənəvi dəyərlərə münasibəti müsbət mənada çox dəyişmiş, onlar milli şüur və milli mənlik şüuru ilə bağlı folklor nümunələrini böyük həvəslə öyrənməyə başlamışlar. Onlarla aparılan sorğudan məlum oldu ki, onlar özlərinə məxsus milli "Mən"in əxlaqi-mənəvi keyfiyyətlərinin bütün çalarları ilə şərh etməyi bacarırlar. Sorğu prosesində o da məlum oldu ki, yeniyetmələr onların milli mənlik şüurunu inkişaf etdirən milli-mənəvi dəyərlərə də obyektiv qiymət verməyi bacarırlar. Maraqlı orasıdır ki, yeniyetmələrin böyük əksəriyyəti müasir dövrdə milli mənlik şüurunun inkişafını şərtləndirən cəhətlər barədə də mühakimə yürütməyə ciddi cəhd göstərirlər. Yeniyetmələr özlərinin də dəyər verdikləri milli dəyərlər, malik olduqları milli mənlik şüurunun başlıca xüsusiyyətləri barədə fikir söyləməkdə heç bir çətinlik çəkmədilər.

Cədvələ diqqət etsək görərik ki, "aşağı" səviyyədə yer alan yeniyetmə yoxdur. Öyrədici eksperimentdən sonra "aşağı" və "orta" səviyyədəki yeniyetmələr müvafiq olaraq "orta" və "yuxarı" səviyyələrə keçmişlər. Eyni sözləri doqquzuncularla aparılan anket sorğularının nəticələri barədə də demək olar. 6 saylı sorğu anketini nəzərdən keçirsək görərik ki, sorğuda iştirak edən 16 şagirdin 10-11 nəfəri "yuxarı" səviyyədə qərarlaşmışlar.

**IX sinif şagirdlərinin anket sorğularına cavabları**

**Cədvəl 3.2**

| S/n | **Sualların sırası** | **Şagird-lərin sayı** | **Cavabların səviyyəsi** | | |
|---|---|---|---|---|---|
| | | | **Aşağı** | **Orta** | **Yuxarı** |
| 12. | Millət deyəndə nə başa düşülür? | 16 | 0 | 6 | 10 |
| 13. | "Millət" və "milli" sözlərinin mənasını aydınlaşdıra bilərsiniz? | 16 | 0 | 6 | 10 |
| 14. | Milli mənlik" və "milli şüur" anlayışlarının məna çalarlarını aydınlaşdırın. | 16 | 0 | 6 | 10 |
| 15. | Milli mənlik şüuru anlayışının mənasını şərh edin. | 16 | 0 | 6 | 10 |
| 16. | Milli-mənəvi dəyərlər hansılardır? | 16 | 0 | 7 | 9 |
| 17. | Milli "mən"in əxlaqi-mənəvi keyfiyyətləri hansılardır? | 16 | 0 | 7 | 9 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 18. | Vətənpərvərliyə, yurdsevərliyə, torpağı yad nəzərlərdən qorumağa dair hansı foklor materiallarını sadalaya bilərsiniz? | 16 | 0 | 6 | 10 |
| 19. | Sadaladığımız folklor materiallarını milli-mənəvi dəyərlər kimi izah edə bilərsinizmi? | 16 | 0 | 6 | 10 |
| 20. | Hazırkı şəraitdə milli-mənəvi dəyərlərin mənlik şüurunun inkişafına təsir imkanlarını şərh edin. | 16 | 0 | 6 | 10 |
| 21. | Müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətləri barədə nə deyə bilərsiniz? | 16 | 0 | 6 | 10 |
| 22. | Milli mənlik şüuruna malik olan insan (məktəbli) hansı keyfiyyətləri ilə seçilməlidir? | 16 | 0 | 6 | 10 |

Cədvəldən göründüyü kimi, doqquzuncuların demək olar ki, hamısı milli mənlik şüuruna və milli mənəvi dəyərlərə olan münasibətlərinin "orta" və "yuxarı" səviyyədə bildirmişlər. Onuncularla aparılan sorğuların nəticələri də qənaətbəxş olmuşdur.Araşdırmalar göstərdi ki, şagirdlər yeniyetməlik dövründə malik olduqları milli mənlik şüurunu günbəgün, aybaay, ilbəil inkişaf etdirmiş olurlar. 11 suala cavab verən onuncuların demək olar ki, hamısı sualı "orta" və "yuxarı" səviyyələrdə cavablandırmışdır. Sevindirici hal odur ki, onuncular səkkizinci və doqquzunculardan fərqli olaraq verilən suallara daha dolğun, daha müfəssəl cavablar vermişlər. Belə ki, "Millət deyəndə nə başa düşülür?" sualına şagirdlərin əksəriyyəti cavablarını "milli toplum" "sosial qrup" kontekstinə yönəltmiş və türk millətinin bir millət olaraq zəngin milli mənəvi dəyərlərə, adət-ənənələrə, folklora, elmi mənbələrə, mədəniyyət-incəsənət abidələrinə, mahnı-melodiyalara, rəqslərə, təsviri sənət əsərlərinə, milli əxlaqa və mənəvi keyfiyyətlərə malik olduqlarını məntiqi cəhətdən əsaslandıraraq şərh etməyə, onların izahını verməyə çalışmışlar. İkinci dərəcəli əlamətlərdən, hadisənin ən mühün və ümumi əlamətlərini qeyd etməyə çalışmışlar. Bu isə göstərir ki, onlar artıq hadisənin mahiyyətini dərk edir və hadisəyə münasibət bildirəndə, onu qiymətləndirəndə bundan çıxış edirlər. Həmçinin qeyd etməliyik ki, onuncular özlərinə məxsus milli-mənlik şüurunun ifadə tərzini açıqlamışlar (Cədvəl 3.3).

**X sinif şagirdlərinin anket sorğularının cavabları**

**Cədvəl 3.3**

| S/n | Sualların sırası | Şagird-lərin sayı | Cavabların səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Aşağı | Orta | Yuxarı |
| 23. | Millət deyəndə nə başa düşülür? | 16 | 0 | 4 | 12 |
| 24. | "Millət" və "milli" sözlərinin mənasını aydınlaşdıra bilərsiniz? | 16 | 0 | 4 | 12 |
| 25. | Milli mənlik" və "milli şüur" anlayışlarının məna çalarlarını aydınlaşdırın. | 16 | 0 | 4 | 12 |
| 26. | Milli mənlik şüuru anlayışının mənasını şərh edin. | 16 | 0 | 4 | 12 |
| 27. | Milli-mənəvi dəyərlər hansılardır? | 16 | 0 | 3 | 13 |
| 28. | Milli "mən"in əxlaqi-mənəvi keyfiyyətləri hansılardır? | 16 | 0 | 2 | 14 |
| 29. | Vətənpərvərliyə, yurdsevərliyə, torpağı yad nəzərlərdən qorumağa dair hansı foklor materiallarını sadalaya bilərsiniz? | 16 | 0 | 4 | 12 |
| 30. | Sadaladığımız folklor materiallarını milli-mənəvi dəyərlər kimi izah edə bilərsinizmi? | 16 | 0 | 3 | 13 |
| 31. | Hazırkı şəraitdə milli-mənəvi dəyərlərin mənlik şüurunun inkişafına təsir imkanlarını şərh edin. | 16 | 0 | 3 | 13 |
| 32. | Müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətləri barədə nə deyə bilərsiniz? | 16 | 0 | 4 | 12 |
| 33. | Milli mənlik şüuruna malik olan insan (məktəbli) hansı keyfiyyətləri ilə seçilməlidir? | 16 | 0 | 4 | 12 |

Sorğu anketi ilə bağlı aparılan araşdırma və təhlillərdən aydın olur ki, X-XI sinif şagirdləri öyrədici materiallara elmi cəhətdən yaxşı, düzgün

yanaşmış, onları daha yaxşı mənimsəmiş, maraq kurslarında, habelə kütləvi tədbirlərdə milli mənlik şüuru ilə bağlı onlara verilən bilik, bacarıq və vərdişlər sisteminə yaxşı yiyələnmişlər. Onlar problemin psixoloji əsaslarını "orta" və "yuxarı" səviyyədə mənimsəmişlər. Cədvəldən göründüyü kimi onbirincilərin heç biri anket sorğusunda qoyulan suallara "aşağı" səviyyəli cavab verməmişdir. Üstəlik onların kiçik bir qismi anket sorğusunun "orta", əksəriyyəti isə "yuxarı" səviyyəsində cavablar vermişdir. Sorğu anketindəki nəticələri araşdırıb təhlil edərkən məlum oldu ki, onbirincilərin hamısı eksperimental işin öyrədici mərhələsini uğurla keçmiş, onlara milli mənlik şüuru ilə bağlı verilən tapşırıqların hamısını müvəffəqiyyətlə yerinə yetirmiş, problemlə bağlı didaktik materialların hamısını öyrənmişdir. Əslində, öyrənmişlər və öyrənə-öyrənə mütamadi olaraq mənimsəmişlər.

Ona görə "milli", "millət", "mənlik", "milli mənlik", "milli mənəviyyat", "milli mənəvi dəyərlər", "milli mənlik şüuru" anlayışlarının mahiyyətini, məna çalarlarını ətraflı şərh etməyə müvəffəq olmuşlar. Onbirincilər milli "mən"in əxlaqi keyfiyyətlərini təhlil etməklə yanaşı, milli "mən"ə məxsus olan milli mənəvi dəyərləri də təsnif edərək təhlilə cəlb etmişlər. Ən yaxşı hal odur ki, onbirincilər əvvəlcə müstəqillik dövrünəqədərki insanların milli mənlik şüuru ilə müstəqillik dövründəki insanların milli mənlik şüurunu müqayisəli şəkildə təhlil etmişlər. Onlar müasir dövrdə yetişən nəslin malik olduğu milli mənlik şüurunun inkişaf xüsusiyyətlərini qaneedici bir tərzdə göstərmişlər.

**XI sinif şagirdlərinin anket sorğularının cavabları**

**Cədvəl 3.4**

| S/n | Sualların sırası | Şagirdlərin sayı | Cavabların səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Aşağı | Orta | Yuxarı |
| 34. | Millət deyəndə nə başa düşülür? | 14 | 0 | 2 | 12 |
| 35. | "Millət" və "milli" sözlərinin mənasını aydınlaşdıra bilərsiniz? | 14 | 0 | 2 | 12 |
| 36. | Milli mənlik" və "milli şüur" anlayışlarının məna çalarlarını aydınlaşdırın. | 14 | 0 | 1 | 13 |
| 37. | Milli mənlik şüuru anlayışının mənasını şərh edin. | 14 | 0 | 1 | 13 |
| 38. | Milli-mənəvi dəyərlər hansılardır? | 14 | 0 | 1 | 13 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 39. | Milli “mən”in əxlaqi-mənəvi keyfiyyətləri hansılardır? | 14 | 0 | 1 | 13 |
| 40. | Vətənpərvərliyə, yurdsevərliyə, torpağı yad nəzərlərdən qorumağa dair hansı foklor materiallarını sadalaya bilərsiniz? | 14 | 0 | 0 | 14 |
| 41. | Sadaladığımız folklor materiallarını milli-mənəvi dəyərlər kimi izah edə bilərsinizmi? | 14 | 0 | 0 | 14 |
| 42. | Hazırkı şəraitdə milli-mənəvi dəyərlərin mənlik şüurunun inkişafına təsir imkanlarını şərh edin. | 14 | 0 | 0 | 14 |
| 43. | Müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətləri barədə nə deyə bilərsiniz? | 14 | 0 | 1 | 13 |
| 44. | Milli mənlik şüuruna malik olan insan (məktəbli) hansı keyfiyyətləri ilə seçilməlidir? | 14 | 0 | 1 | 13 |

Onbirincilərin 8 saylı sorğu anketində apardıqları qeydlərini təhlilə cəlb edərkən, ilk növbədə, belə qənaət hasil olur ki, eksperimental işin ikinci mərhələsində tədqiqat planına uyğun olaraq müəyyənləşdirilən fərziyyənin doğruluğunu sübuta yetirmək üçün həyata keçirilən məqsədyönlü işlərin nəticələrini uğurlu hesab etmək olar. Cədvəldə onbirincilərin böyük əksəriyyətinin qoyulan suallara “orta” və “yuxarı” səviyyədə cavablar verməsi bunu sübut edir. Onu da qeyd etmək lazımdır ki, cavabların “yuxarı” səviyyəsinin üstünlük təşkil etməsi mənimsəmə faizinin yüksək olmasından xəbər verir. Yəni onbirincilərin 1,2,3-cü suallara cavab verən 14 şagirdin 2-si, 4,5,6,10 və 11-ci suallara cavab verənlərin 1-i “orta”, qalanları isə “yuxarı” səviyyədə cavab vermişlər.

Bunlar onu göstərir ki, yetişən nəslin nümayəndələri ilə məqsədyönlü, planlı və mütəşəkkil iş aparıldıqda milli mənlik şüurunun formalaşdırılmasına nail olmaq mümkündür.

Aparılmış tədqiqatın nəticələrinin təhlilini ümumiləşdirərək aşağıdakı şəkildə ifadə etmək olar:

- Mənlik şüuru yetişən nəslin hər birinin özünə şəxsiyyət kimi yanaşması və özünü şüurlu olaraq dərk etməsi prosesi olduğu üçün bu prosesin psixoloji əsaslarının mükəmməl öyrənilməsi əhəmiyyətlidir.

- Mənlik şüuru yetişən nəslin tələbat və qabiliyyətlərinə şüurlu münasibətləri nəzərdə tutulduğu üçün həmin şüurlu münasibətlərin elmi-psixoloji cəhətdən öyrənilməsi vacib hesab olunur.

- Yeniyetmələrin fikirlərinə, hiss və duyğularına, davranış və fəaliyyət motivlərinə şüurlu münasibətləri onların mənlik şüurunun inkişafına dinamik təsir göstərir. Bunun nəzərə alınması ən zəruri şərtlərdəndir.

- Yeniyetmələrin mənlik şüuru yeniyetmələri bütün ətraf aləmdən, başqa sözlə desək, öz "mən"ini "qeyri-mən"dən ayırır. Beləliklə, onlar özlərinin fiziki, əxlaqi-mənəvi, xüsusilə psixi keyfiyyətlərini obyektiv qiymətləndirə bilirlər. Yəni onlar dərk edərək qiymətləndirdikləri psixi həyatlarının bütün tərəflərinə, istiqamətlərinə və cəhətlərinə şüurlu münasibət bəsləməyə alışırlar. Belə alışma isə onların milli mənlik şüurunun formalaşmasına kömək etmiş olur.

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **"Müasir şəraitdə milli mənlik şüurunun inkişafının psixoloji xüsusiyyətləri"** adlanır. Bu yarımfəsildə göstərilir ki, müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətlərini dərindən tədqiq edərkən problemin nəzəri əsaslarını, mənlik şüurunun mahiyyətini, tədqiqi istiqamətlərini, emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündəki rolunu, mənlik şüurunun şəxsiyyətin sosiallaşmasının əsas amillərindən olduğunu əsaslandırdıqdan sonra milli mənlik şüurunun inkişafının bir sıra mühüm psixoloji xüsusiyyətlərinin də aydınlaşdırılmasına zəruri ehtiyac var. Yarımfəsil yekunlaşdırılaraq belə qənaətə gəlinmişdir:

- bünövrəsi kiçik məktəb yaşı dövründə qoyulan ictimai təcrübənin yeniyetməlik dövründəki inkişafı ictimai inkişaf adlanır;

- yeniyetməlik dövrünün ictimai inkişafı həmin dövrün yetkinləşməkdə olan təfəkkür tərzinin bünövrəsini qoymuş olur;

- yeniyetməlik və ilkin gənclik dövrünün yetkinləşməkdə olan təfəkkür tərzinin formalaşması şüurlu inkişafın bünövrəsi üçün təməl rolunu oynayır;

- yeniyetməlik və ilkin gənclik dövrünü keçirən məktəblilərə məxsus olan belə şüurlu inkişaf onların özlərinə olan mənlik şüurunu yaradır;

- deməli, mənlik şüuru yetişən nəslin ictimai təcrübəsindən yaranan ictimai şüuru onların təfəkkür tərzinin inkişafının bünövrəsini təşkil edir;

- yetişən nəslin özünün tələbatlarına, qbiliyyətlərinə, istedadlarına, özlərinin fikir və hadisələrinə, eləcə də davranış və fəaliyyət motivlərinə şüurlu münasıbətlərinin məcmusuna mənlik şüuru deyilir;

- mənlik şüurunun milli-mənəvi dəyərlər, milli-mədəni normativlər, milli-əxlaqi keyfiyyətlər əsasında inkişafı milli mənlik şüurunun inkişafını təmin etmiş olur;

- milli maraqlara əsaslanan örnək davranış qaydaları, əxlaq kateqoriyaları, əxlaqi ideallar, milli ləyaqət, bütövlük, nümunəvi davranış motivləri yetişən nəslin milli mənlik şüurunun formalaşmasını təmin edən ən əsas amillərdəndir.

Dissertasiyanın mövzusu ilə bağlı mövcud ədəbiyyatın, aparılan eksperimental tədqiqat zamanı əldə edilən faktların təhlili və ümumiləşdirilməsi əsasında aşağıdakı **nəticələr** hasil olmuşdur:

1. Yetişən nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi bütün dövrlər üçün aktual olduğu kimi, müasir şəraitdə də mühüm aktuallıq kəsb edir.

2. Bütün dövrlərdə olduğu kimi, hazırki, dövdə də yetişən nəslin milli mənlik şüurunun inkişafı ictimai, iqtisadi, siyasi, mədəni inkişafın tələblərindən asılı olduğu üçün yetişən nəslin, yəni yeni insanın tərbiyəsinə və şəxsiyyətyönümlü inkişafına məhz bu konteksdən yanaşmaq lazımdır.

3. Müasir dövrdə yetişən nəslin nümayəndələrinin, xüsusilə yeniyetmə-gənclərin milli mənəvi dəyərlərə münasibətlərinin milli ruhda inkişaf etdirilməsi, onların milli ruhda tərbiyə olunmasının və milli mənlik şüurunun milli ruhda formalaşdırılmasının imkanlarını artırmış olur.

4. Mənlik şüurunun mahiyyətinin düzgün, ətraflı və dəqiq olaraq aydınlaşdırılması, milli mənlik şüurunun da mahiyyətinin və məzmununun düzgün, ətraflı və dəqiq aydınlaşdırılmasına səbəb olur. Bu da müasir dövrdə yetişən nəslin nümayəndələrinin, xüsusilə yeniyetmə-gənclərin şəxsiyyətyönümlülük səviyyəsinin inkişafını təmin etmiş olur.

5. Mənlik şüuru yetişən nəslin nümayəndələrinin, o cümlədən yeniyetmə-gənclərin özlərini bir şəxsiyyət kimi tanıması və dərketməsi prosesi olduğu üçün onların tələbat və qabiliyyətlərinə, duyğularına, davranış və fəaliyyətlərinə şüurlu münasibətlərinin düzgün tənzimlənməsini kor-koranə yox, məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirmək lazım gəlir. Çünki müasir dövr bunu tələb edir.

6. Istər ailədə, istər məktəbdə, istərsə də sosial mühitdə məktəblilərin milli mənlik şüurunun inkişaf xüsusiyyətlərini müasir dövrün aktual tələblərinə uyğun olan bir tərzdə öyrənmək lazımdır. Məhz belə olan təqdirdə məktəblilər özlərini bütün ətraf aləmdən, başqa sözlə desək, öz mənini qeyri-mənlərdən ayıra bilir. Belə olan təqdirdə isə onlar öz "mən"inin fiziki, psixi və mənəvi keyfiyyətlərini düzgün dəyərləndirir və obyektiv qiymətləndirir. Beləliklə, onlar psixi həyatın bütün cəhətlərinə düzgün, şüurlu münasibət bəsləməyə qadir olurlar.

7. Müasir şəraitdə şagirdlərin mənlik şüurunun inkişaf xüsusiyyətlərinin mahiyyətinin, elmi-psixoloji məzmununun ətraflı öyrənilməsi mənlik şüurunun strukturunun əsas cəhətlərinin də mahiyyət və məzmununun

hərtərəfli öyrənilməsinə şərait yaratmış olur.

8. Müasir şəraitdə milli mənlik şüurunun həm ailə, həm məktəb, həm sosial mühitin təcrübəsində, həm də tədqiqat materiallarındakı qoyuluşu ziddiyyətlidir. Ziddiyyətlərdən isə ən başlıcası milli mənlik şüurunun müstəqillik dövründən əvvəlki dövrün steriotiplərinə uyğun olaraq inkişafına cəhd göstərilməsi hallarının hələ də qalması ilə izah edilməlidir. Ona görə də müasir dövrdə milli mənlik şüuru strukturunun müasir dövrün aktual tələblərinə uyğun olan bir tərzdə müəyyənləşdirilməsi zəruri hesab olunur.

9. Milli mənlik şüurunun struktur vahidlərinin bir-birindən fərqlənən cəhədlərini, əlamətlərini və xüsusiyyətlərini ayrı-ayrılıqda və müasir dövrün aktual tələbləri baxımından öyrənilməsi vacib hesab olunur. Məsələn, yetişən nəslin hər bir nümayəndəsinin psixoloji avtoportretini olduğu kimi yaratmaq lazım gəlir. Buna elmi psixologiyada "Mən obrazı"nın yaradılması da deyilir. Yeniyetmə-gənclərin özlərinin özləri haqqındakı təsəvvürlərini, yəni "mən obrazı"nı müəyyənləşdirərkən müasir dövrün sivil mədəniyyət nümunələrinə və qloballaşdırma ənənələrinə istinad etmələri vacibdir. Apardığımız eksperimental işin nəticələri də bunu sübut edir.

10. Müasir dövrdə yetişən nəslin nümayəndələrinin milli mənlik şüurunun yaradılması və inkişafında mühüm əhəmiyyət kəsb edən ən yeni özünüqiymətləndirmə modelinin müəyyənləşdirilməsi vacib hesab olunur. Apardığımız eksperimental işin nəticələrinə istinad edərək deməliyyik ki, yetişən nəslin nümayəndələrinin, xüsusilə yeniyetmə-gənclərin özləri özlərini adekvat surətdə qiymətləndirmələri onların mənlik şüurunun oyanmasına, oyanmanın əsasında isə milli mənlik şüurunun yaranmasına və inkişafına səbəb olur.

11. Yeniyetmə-gənclərin milli mənəvi dəyərlərə yaxınlaşdırılması, onların bu dəyərlər əsasında tərbiyələndirilməsi, onların milli mədəniyyət və incəsənət nümunələri, habelə milli folklor materialları ilə yaxından tanış edilməsi onların milli mənlik şüurunun inkişaf etdirilməsi üçün stimul yaratmış olur.

12. Özünüqiymətləndirmə modelinin yaradılması milli mənlik şüurunun formalaşdırılmasının əsasını təşkil edir. Ona görə də özünüqiymətləndirmənin yeni modelinin müasir dövrün, o cümlədən sivilizasiyanın yeni ənənələrinə, qolaballaşdırmanın isə nəzəri və praktik müddəalarına istinad olunması faydalıdır. Bunu həyata keçirdiyimiz eksperimental işin sonucları da özündə ifadə edir.

13. Özünüqiymətləndirmənin özünüdərk, özünütəlqin, özünütənqid, özünüdəyərləndirmə, özünəhörmət kimi komponentlərini düzgün müəyyənləşdirməyə xidmət edən didaktik materialların həm öyrədici, həm də

psixoloji təsir materialları kimi hazırlanması, yeniyetmə və gənclərə tətbiq edilməsi milli mənlik şüurunun yaranmasına səbəb olur.

14. Öyrədici və psixoloji təsir materiallarının elmi əsaslar üzərində hazırlanması onların psixoloji təsir gücünü artırmış olur. Belə öyrədici və psixoloji təsir materialları yeniyetmə və gənclərin potensial davranış reaksiyalarının fəallığını artırır. Beləliklə, yeniyetmə-gənclərin "Mən obrazı"nı özünüqiymətləndirməsi onların nümunəvi davranış və örnək xarakterli rəftarlarında təzahür edir. Şüurda təzahür edən bu amil milli xarakter daşıdığı üçün onu inkişaf etdirməyi milli mənlik şüurunun örnək nümunəsi hesab edirlər. Apardığımız sınaq təcrübə işlərinin nəticələri də bunu sübut edir.

15. Filosoflar, sosioloqlar, məntiqşünaslar, pedaqoqlar və psixoloqlar vahid qənaətə gələrək göstərirlər ki, insanın bir şəxsiyyət kimi formalaşmasında irsiyyət, mühit və tərbiyə amili mühüm əhəmiyyət kəsb edir. Irsiyyət amilinə üstünlük verilməsi həmişə diqqət mərkəzinə gətirilir. Lakin unudulur ki, milli mənlik şüurunun təşəkkülündə mühitin rolu böyükdür. Biz eksperimental və sınaq təcrübə işləri vasitəsilə sübuta yetirdik ki, mühitin, xüsusilə, emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündə bənzərsiz rolu vardır.

16. İstisna hal kimi qeyd etməliyik ki, şəxsiyyətin milli mənlik şüurunun formalaşması sosial psixoloji amillərdən çox asılıdır. Apardığımız eksperimental və sınaq təcrübə işlərinin nəticələri bir daha sübut etmişdir ki, sosiallaşmanın sosial-psixoloji effektlər yaratması imkanları çox böyükdür. Bu imkanlardan istifadə etməklə şəxsiyyətin milli mənlik şüurunun inkişafını təmin etmək olar.

17. Apardığımız sınaq-təcrübə işləri sübut etdi ki, şəxsiyyətin milli mənlik şüurunun inkişafını şərtləndirən əsas cəhətlər mövcuddur. Hansı ki, bu cəhətləri gözləmək, onlara istinad etmək, onları nəzərə almaqla yetişən nəslin milli mənlik şüurunun müasir dövrün tələblərinə uyğun olan bir tərzdə inkişaf etdirmək olar.

**Bir sıra təkliflərin verilməsini də məqsədəuyğun hesab edirik.**

1. Orta ümumtəhsil məktəblərinin həm aşağı siniflərinin, həm də yuxarı siniflərinin bəzi dərsliklərində, "mənlik şüuru", "milli mənlik şüuru", "milli-mənəvi dəyərlər" əsasında tərbiyə mövzusunda mətnlərin öz əksini tapması yaxşı olardı.

2. Görkəmli psixoloqlarla məsləhətlər əsasında məktəb psixoloqları tərəfindən milli mənlik şüuru ilə bağlı hazırladığı trafaretlər məktəbin dəhlizində və ya hər hansı bir görkəmli yerlərində psixoloji-guşə kimi yer alarsa, faydalı olar.

3. Milli mənlik şüurunun inkişaf etdirilməsi mövzusunun müxtəlif

adlarda və ya müvafiq üslubda işlənməsi şərti, yaxud hər hansı uyğun bir adda maraq kursunun, dərnəyin, lektoriyanın yaradılması (rəhbərlik edən mütəxəssiləri maddi cəhətdən maraqlandırmaq şərtilə) yaxşı olardı.

4. Milli mənlik şüuru mövzusunun orta ümumtəhsil məktəblərində innovativ əsaslarla öyrədilməsi məqsədəuyğun olardı. Bunun üçün məktəb psixoloqlarının rəhbərliyi altında xüsusilə disklərin hazırlanmasını tövsiyə edirik.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin nəşr olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Sosial məsələlər və şəxsiyyətin istiqamətləndirilməsi// Naxçıvan Dövlət Universitetinin elmi əsərləri, Naxçıvan: Qeyrət, 2004, № 14, s. 44-46.

2. "Məktəbi-tərbiyə"nin ədəb qaydaları – milli davranış qaydalarımızın nümunəsə kimi / İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. Naxçıvan: Əcəmi, 2004, s.157-169.

3. Milli mənlik şüurunun struktur komponentləri // Naxçıvan Müəllimlər İnstitutunun elmi əsərləri, Naxçıvan: Məktəb, 2011, № 3 (27), s.8-13.

4. Milli adət və ənənələrin şagirdlərdə milli mənlik şüurunun formalaşmasına təsiri. / Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi mövzusuna həsr edilmiş elmi-praktik konfransın materialları. Naxçıvan Müəllimlər İnstitutu nəşriyyatı, Naxçıvan: Məktəb, 2011, s. 43-45.

5. Novruz bayramı milli dəyərlər kimi // Naxçıvan Müəllimlər İnstitutunun elmi əsərləri, Naxçıvan: Məktəb, 2012, cild: 8 № 2, s.24-26.

6. Şagird şəxsiyyətinin formalaşmasında yeni təhsil konsepsiyalarının əhəmiyyəti / Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2014, s.125-126.

7. Şagirdlərdə milli mənlik şüurunun formalaşdırılmasının əhəmiyyəti / müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi mövzusuna həsr edilmiş araespublika konfransı. Naxçıvan: Məktəb, 2014 s.82-84.

8. Нацгщнальное самосознание и факторы, обуславливающие его развитие // Полтавський националный педагогичный униерститет имени В.Г.Кореленка. Науковий журнал Киев-Полтава: № 2 (8) частина 2 2015, с. 280-291.

9. Milli mənlik şüurunun psixoloji əsasları // Naxçıvan Müəllimlər İnstitutunun elmi əsərləri, Naxçıvan: Məktəb, 2015, Cild: 11 № 1, s. 18-22.

10. Emosional mühit amili və yeniyetmələrin mənlik və milli mənlik şüurunun təşəkkülündə rolu // Pdaqoji Universitet Xəbərləri, Bakı: ADPU, 2015, №3, s. 408-411.

11. Müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətlərini şərtləndirən cəhətlər və pedaqoji prosesdə onların nəzərə alınması // Psixologiya jurnalı, Bakı: "Təhsil" nəşriyyatının mətbəəsi, 2015, s. 62-70

12. Milli mənlik şüurunun meyarı olan ağılın pedaqoji-psixoloji əsasları // Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat Beynəlxalq elmi nəzəri jurnal, Bakı: Ləman nəşr-poliqr, 2015, s. 390.

13. Milli mənlik şüurunun mahiyyəti və onun aşılanması psixologiyası / Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar, Beynəlxalq elmi konfransın materialları, Bakı: Mütərcim, 2015, s. 209-210

14. Müasir dövrdə milli mənlik şüurunun inkişaf xüsusiyyətlərini şərtləndirən cəhətlər / Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr Respublika elmi konfransının materialları. Bakı:ARTPİTTM- nin nəşriyyatı, 2015, s. 234.

15. Milli mənlik şüurunun formalaşdırılması yeniyetmə şəxsiyyətinin sosiallaşmasının əsas amillərindən biri kimi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi əsərləri, Bakı: Mütərcim, 2016, Cild 83, № 1, s. 191-196.

16. Yeniyetməlik dövrünün psixoloji xüsusiyyətləri və milli mənlik şüurunun təşəkkülündə onların mövqeyi // Azərbaycan Dillər Universitetinin elmi xəbərləri, Bakı: Mütərcim, 2016, №2, s. 315-320.

17. Təhsilin sosiallaşması və onun şagirdlərin milli mənlik şüurunun formalaşmasına təsiri // Naxçıvan Dövlət Universiteti elmi əsərləri, Naxçıvan: Qeyrət, 2016, №6 (74), s.84-87.

18. Milli mənlik şüurunun formalaşmasında azərbaycançılıq ideyasının rolu və əhəmiyyəti // Bakı Qızlar Universiteti elmi əsərləri, Bakı: BQU-nun mətbəəsi, 2016, №1, s.71-77.

19. Milli mənlik şüurunun pedaqoji və psixoloji əsaslarının düzgün müəyyənləşdirilməsini şərtləndirən cəhətlər // Naxçıvan Dövlət Universiteti elmi əsərlər, Naxçıvan: Qeyrət, 2016, №4 (78), s. 125-130.

20. Пути развития национального самосознания у учащихся / Качество высшего образования: соврименные тенденции и перспективы развития образовательной деятельности высшего учебного заведения. Международной научно-методической конференции. Полтава: Пует, 2016, с. 404-407.

21. Şagirdlərdə ağlın keyfiyyətlərinin formalaşdırılmasına yeni təhsil konsepsiyası tələbləri baxımından yanaşma / Təhsil kurikulumları: praktik

tətbiqlər" Respublika elmi konfransının materialları. Naxçıvan: Məktəb, 2016, s. 36-41.

22. Milli mənlik şüurunun pedaqoji və psixoloji əsaslarının müəyyənləşdirilməsi və yeni təhsil sistemində nəzərə alınmasının əhəmiyyəti / "Azərbaycan təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar" Beynəlxalq emi konfransın materialları. Bakı: Mütərcim, 2016, s. 45-46.

23. Pedaqoji prosesdə yetişən nəsilin milli mənlik şüurunun formalaşmasında təfəkkürün rolu // Azərbaycan Respublikası Təhsil İnstitutu Elmi əsərlər, Bakı: Mütərcim, 2017, № 6. s. 206-211.

24. Yeniyetmələrin milli mənlik şüurunun formalaşmasında ictimai rəyə əsaslanan faktların təsir gücü və onlardan istifadə mexanizimləri / Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi mövzusuna həsr edilmiş elmi-praktik konfransın materialları. Naxçıvan Müəllimlər İnstitutu nəşriyyatı, Naxçıvan: Məktəb, 2017, s. 67-70

**Гулиев Чапай Гадир оглу**
**Особенности развития национального самосознания на современном этапе**

## РЕЗЮМЕ

Настоящая диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во «Введении» обосновывается актуальность темы, определяются объект, предмет, методология, методы, цели и задачи исследования, сформулирована рабочая гипотеза, издожены научная новизна, научно-практическое значение, апробация диссертации и положения, вносимые на защиту.

Первая глава диссертации называется «Сущность, содержание, теоретические основы исследования национального самосознания». В ней выясняется сущность национального самосознания, рассматриваются особенности его развития и основные направления исследования.

Во второй главе, названной «Направления изучения национального самосознания», исследуется сущность понятий самосознания и национального самосознания. При этом наряду с оттенками этимологического значения обоих понятий освещаются их научно-психологические основы, содержание и особенности развития. Далее в ней в научно-педагогическом аспекте также анализируется роль эмоциональной среды в становлении самосознания и национального самосознания личности. В конце главы анализу подвергается структура национального самосознания как фактор социализации личности. Здесь наряду со своей сущностью выясняется место социализации в формировании национального самосознания у учащихся на современном этапе.

Третья глава диссертации называется «Исследование психологических особенностей, влияющих на развитие национального самосознания на современном этапе». В начале главы даются сведения о научных фактах и явлениях, связанных с организацией и проведением исследования. Затем анализируются полученные данные. При этом сопоставляются различные мысли и суждения, подтверждающие правильность рабочей гипотезы, делаются научные обобщения.

В заключительной части исследования представлены научные выводы и, предложения. Диссертация завершается списком использованной литературы.

Chapay Gadir Guliyev

Development characteristics of national self consciousness in modern time

## SUMMARY

The structure of the thesis consists of inteoduction, 3 chapters, conclusion and selected referances.

In the introduction of the thesis that is called “Development characteristics of national self consciousness in modern time” the actuality of the theme was grounded and object of the research, subject, methodology, methods, aims, objects, working assumption, scientific innovation, theoretical-practical importance, agrobase and items presented to the defence of a thesis were explained.

In the first chapter called “the essence, contents and theoretical bases of the research of national self-consciousness” the essence, development characteristics and main research directions were cleared.

In the second chapter called “Studying directions of national self-consciousness” the essence of national self-consciousness notions was cleared. In this case side by side with ethymological meaning shades of both notions, scientific-psychological bases, essence and development characteristics were cleared as well. In this subunit the role of emotional atmosphere in the development of self and national self-consciousness of a person was analysed from scientific-pedagogical point of view. At the end of subunit structure of national self-consciousness was involved to analysis as factor of socializing of a person. Here side by side with the essence of socializing, its place in the formation of national self-consciousness of pupils in modern time was explained as well.

In the last subunit of the thesis called “The influence of search of peculiarities characterizing modern time to the development of national self-consciousness” first of all information about scientific facts and events connected with organizing and holding of research is given. Then obtained results are analysed. In this case comparative opinions, scientific discourses, scientific generalizations that prove the correctness of working assumption is brought to the attention.

At the end of the thesis the obtained results and the proposed proposals in the thesis are stated.

The thesis is completed with the used selected reference.